**103 illik zəngin ənənəyə malik Polis Akademiyası bu gün Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində tarixi inkişaf mərhələsinə qədəm qoyub. Akademiyanın yeni inşa olunmuş 1500 nəfərlik tədris korpusu və yataqxana kompleksinin artıq kursantların istifadəsinə verilməsi məhz Ali Baş Komandanın hərtərəfli diqqətinin əyani təzahürüdür.**



# Keyfiyyətli təhsil, modern infrastruktur, uğurlu nəticə

## Polis Akademiyasında yeni tədris korpusu və yataqxana kompleksi istifadəyə verilib







Görülən son işlər sayəsində asayiş keşikçilərinin hazırlanması üçün Polis Akademiyasında müasir meyarlara cavab verən təhsil prosesinin həyata keçirilməsi məqsədilə infrastruktur təminatı ən yüksək səviyyəyə çatdırılıb, maddi-texniki baza daha da möhkəmləndirilib.

Polis Akademiyasında təhsil alan kursantlar hüquqi biliklərlə yanaşı, kriminalistik tədqiqatlar, informasiya təhlükəsizliyi və informasiya texnologiyaları, habelə insan hüquqlarının təminatı, məntiq və yeni dövrün çağırışları ilə səsləşən ixtisaslar üzrə elmi-nəzəri, praktiki biliklər qazanırlar.

Müasir texniki və sinxron tərcümə avadanlıqları ilə təchiz edilmiş konfrans zalları beynəlxalq və respublika səviyyəli elmi-praktiki müzakirələrin aparılması, multimedia sistemi və dərslərin operativ təhlilinə imkan verən audio-video nəzarət vasitələri ilə təmin olunmuş mühazirə zalları isə interaktiv üsullarla dərslərin keyfiyyətinin yüksəldilməsi və təhsil alanların fənnə olan marağının artırılması üçün nəzərdə tutulub.

Akademiyada informasiya təhlükəsizliyi sahəsində xüsusi biliklərə yiyələnmək üçün geniş imkanlar yaradılıb. Burada təhsil alanlar xüsusi laboratoriyalarda kiberhücumlara qarşı dayanıqlılığın artırılmasının effektiv yollarını araşdırır, şəbəkə təhlükəsizliyi və məlumatların qorunması üsullarını peşəkar müəllimlərin köməyi ilə dərindən mənimsəyirlər.

Qapalı və interaktiv atıcılıq tirində tapançadan atəş üçün 25 metrlik hədəf sistemləri, 12 nəfərin eyni vaxtda atəş açması üçün kabinələr, elektron hədəf və monitorlar, eləcə də zəruri kommunikasiya qurğuları ilə təchiz edilib.













Kursantlarda güc, çeviklik və dözümlülüyün inkişaf etdirilməsi məqsədilə hər bir yataqxananın və tədris korpusunun kürsülərində müasir avadanlıqlarla təchiz edilmiş idman zalları mövcuddur.

Hər biri 500 nəfər üçün nəzərdə tutulmuş 1000 yerlik yeməkxana binasında yaradılan hərtərəfli şəraitlə kursantların keyfiyyətli qidalanması təmin olunacaq.

Zəruri mebel avadanlıqları ilə təchiz edilmiş 880 yerlik yeni yataqxana binası kursantların yaşamasına və növbəti günə hazırlaşmasına xidmət edir.

Tədris olunan fənlərə uyğun didaktik fondla təmin edilmiş oxu və qiraət zallarında kursantların dərslərə axşam saatlarında da hazırlaşmaq, asudə vaxtlarını səmərəli təşkil etmək, ölkədə və beynəlxalq aləmdə baş verən mühüm ictimai-siyasi və digər hadisələr barədə xəbərləri izləmək imkanı yaradılıb.

İstirahət zonaları isə dərsdənkənar vaxtlarda kursantların açıq havada dincəlməsi, eyni zamanda aktual mövzular ətrafında diskussiyalar aparması üçün nəzərdə tutulub.

Polis Akademiyasının yeni tədris korpusunda ən müasir standartlar əsasında görülən işlər kursantların təhsil səviyyəsi, fiziki gücü, dünyagörüşü və xidmət üçün vacib olan digər keyfiyyətləri ilə peşəkar polis zabiti kimi formalaşmasına vəsilə olacaq. Akademiyanı bitirən yüzlərlə gənc daxili işlər və digər hüquq-mühafizə orqanlarında öz nümunəvi xidmətləri ilə fərqlənməklə, ölkəmizin bu gün olduğu kimi, gələcəkdə də sabitlik mühitinin qorunmasına və təhlükəsizliyinin təmin olunmasına dəyərli töhfələr bəxş edəcəklər.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***





Azərbaycan.-2024.- 22 oktyabr (№ 232).- S.6.